# AZƏRBAYCAN RESPUBLİKASINDA MÜSTƏNTİQİN ETİKASI

**S.A. Ağayev, İ.R. Mirzəyev***

DİN-in Polis Akademiyası, *Milli Aviasiya Akademiyası

*Məqalədə ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarında cinayət-prosessual fəaliyyətin effektiv şəkildə tətbiqini şərtləndirən problemlərə toxunulur, cinayət mühakimə icraatı həyata keçirilərkən elmi nailiyyətlərdən istifadə edildikdə qarşıya çıxan prosessual suallara aydınlıq gətirilir, ibtidai istintaqın etik başlanğıclarının şərhinə geniş şəkildə yer verilir.*

***Açar sözlər:*** *etik başlanğıclar, əxlaqi normalar, əxlaqi münasibətlər, ittiham, təqsirləndirilən şəxs, axtarış, "müstəntiq hiyləsi".*

Azərbaycan Respublikasında cinayət-prosessual qanunlarının düzgün tətbiqi onların yalnız etik başlanğıclarının aydınlaşdırılması ilə mümkündür [1].

Qanunun mənəvi məzmununun açıqlanması məsələsini sadə şəkildə təsvir etmək lazım deyil. Əgər məhkəmə prosesinin aşkarlığına məhkəmənin ciddi riayət etməsi tərbiyənin əxlaqi başlanğıcını ifadə edirsə, ibtidai istintaqda əksinə, aşkarlıq prinsipini aradan qaldıran müddəa özündə vacib mənəvi əsasları nəzərdə tutur. İbtidai istintaq təcrübəsi göstərir ki, cinayət prosesinin bu mərhələsi üçün aşkarlığın təmin olunmasında çox vaxt təqsirləndirilən şəxs maraqlı olur. Çünki həmin şəxs onun cinayət məsuliyyətinə cəlb edilməsi barədə məlumatın geniş şəkildə yayılmasını istəmir. Bu məsələdə digər şəxslər də maraqlı ola bilər (məsələn, cinsi cinayətlərdə zərər çəkmiş şəxs, onun qohumları və s.). İbtidai istintaq təcrübəsinə görə, qanunsuz abort haqqında cinayət işi üzrə uşağın həqiqi atası barədə məlumatlar yayılmışdır. Üzərində abort əməliyyatı keçirilmiş qadın, uşağın əsil atasının kimliyinin ərinə məlum olduğunu öyrəndikdə, özünü öldürmüşdür. Fikrimizcə, ibtidai istintaq məlumatlarının yayılmasının yolverilməzliyi şərtinə əməl edilməsi iş üzrə ibtidai araşdırmanın müvəffəqiyyətlə aparılması baxımından əhəmiyyətlidir.

İbtidai istintaqın məzmunu özündə təkcə xidməti məlumatları deyil, eləcə də bəzi digər məsələlər üzrə dövlət, hərbi və diplomatik sirləri də nəzərdə tutur, hüquqi və mənəvi baxımdan onların açıqlanmasına yalnız qanunla nəzərdə tutulan hallarda yol verilməsi məqsədəmüvafiq hesab edilir. Bu məsələ ilə bağlı H.Q. Eyvazovun fikirləri maraqlıdır. O, qeyd edir ki, ibtidai istintaq sirrinin məzmununa daxil olan məlumatların əsas hissəsi taktiki xarakterli informasiyalara, yəni istintaqa mane olan hərəkətləri neytrallaşdırma vasitəsi kimi istifadə edilə bilən informasiyalara aiddir [6.s.68].

İttihamın əsaslandığı sübutların təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərara daxil edilməsinə dair məsələ barədə alimlər müxtəlif fikirləri irəli sürürlər. Söhbət istintaq materiallarının təqsirləndirilən şəxsə açıqlanmasından gedir. Təqsirləndirilən şəxsi dindirən müstəntiq həmin şəxsə onun ifadələrini təkzib və ya təsdiq edən sübutların artıq toplanması barədə bildirməlidirmi? Hesab edirik ki, belə sübutlar barədə müstəntiqin təqsirləndirilən şəxsə bildirməməsi mənəvi baxımdan qanunidir və heç də təqsirləndirilən şəxsi aldatmaq kimi baxıla bilməz. İstintaqın sirrini qorumaq müstəntiqin xidməti və mənəvi borcudur.

Müstəntiqin işində başqa suallar da yarana bilər ki, onlara qanun birbaşa cavab vermir. Əxlaqi başlanğıclar müstəntiqə düzgün davranış xəttini müəyyən etməyə imkan verir, istintaqın aparılmasında yolverilməz metodlardan istifadənin qarşısını alır.

Belə bir misal: tələbə Asif tələbə Mədinəni öldürür. Qətl gecə vaxtı, Asif Mədinəni evinə ötürəndə törədilmişdir. Belə ki, yolda Mədinə Asifə deyəndə ki, onu yox, başqasını sevir, Asif qəzəblənir və Mədinəni öldürür. Sonra dərhal polisə gedir, törətdiyi cinayəti etiraf edir və bu cinayətin aləti olan bıçağı polis orqanına təhvil verir. Həbsə alınan Asif anasına məktub yazmaq üçün müstəntiqdən icazə istəyir və bu icazəni alır. Məktubunda Asif qətli necə törətdiyini söyləyir və bu hərəkətilə anasına dərd verdiyinə görə ondan üzr istəyir. Əlbəttə, bu məktub sübut əhəmiyyətinə malik idi o, qətldən əvvəlki halları, cinayətin motivini açıqlayırdı, eləcə də cinayətkarın şəxsiyyətinin xarakteristikası üçün əhəmiyyət kəsb edirdi. Lakin məktub Asifin anasına verilmədi və cinayət işində qaldı. Məktubun məzmunu barədə Asifin anası yalnız məhkəmə çıxışları

zamanı eşidə bildi. Hesab edirik ki, məktub cinayət işinə əlavə edildiyi halda müstəntiq Asifin anasını məktubun məzmunu ilə tanış etməli idi. Yaranmış belə vəziyyətdə müstəntiqin necə hərəkət etməsi barədə cinayət-prosessual qanunvericilikdə birbaşa cavab tapa bilmirik, lakin hesab edirik ki, məktubun məzmununu Asifin anasına çatdırmaq müstəntiqin mənəvi borcu idi.

İstintaq hərəkətlərinin qanunla müəyyən edilmiş qaydada aparılması, cinayətin açılması və onu törətmiş şəxsin (şəxslərin) ifşa edilməsi üçün bu və ya digər metod və vasitələrin tətbiqi ilə bağlı işlərdə müstəntiq həmişə etik xarakterli məsələlərlə üzləşir.

Davranış mədəniyyəti anlayışı bəşəriyyətin yaratdığı müsbət əxlaqi keyfiyyətlərin ümumi daşıyıcısı olaraq insanların malik olduğu etik normalarda təzahür edir və onlar arasında normal ünsiyyət münasibətlərini tənzimləyir, həmçinin hər bir fərdin ləyaqətinin, mədəniyyətinin və digər şəxsi keyfiyyətlərinin ümumi məcmusunu təşkil edir.

“Etiket” fransız sözü olub nəzakətli, xoş rəftar mənalarını verir. Davranış mədəniyyətinin təzahürləri - ədəb ərkan, nəzakət və gözəl ədaların ümumi məcmusudur.

İstintaq hərəkətləri içərisində təqsirləndirilən və şübhəli şəxslərin, zərər çəkmiş şəxslərin və şahidlərin dindirilməsi mərkəzi yer tutur. Bu şəxslərin dindirilməsində yalan və aldatmanın tətbiqi etikanın tələblərinə ziddir.

Dindirmə zamanı müstəntiq tərəfindən yalan və aldatmanın tətbiq edilməsi dedikdə, müstəntiqin həqiqətdə mövcud olmayan faktları dindirilən şəxsə elan etməsi və ya artıq müəyyən edilmiş faktların inkar edilməsi başa düşülür. Əlbəttə, cinayət-prosessual qanun müstəntiqin üzərinə dindirilən şəxslərə istintaq materillarını açıqlamaq vəzifəsini qoymayıb. Cinayət işi üzrə istintaq materiallarının məxfiliyini qorumaq müstəntiqin vəzifə borcudur və o, dindirilən şəxslərə belə materialların məzmununu açıqlamır. İstintaq zamanı müstəntiq təqsirləndirilən şəxsə iş üzrə ondan başqa daha kimlərin cinayət məsuliyyətinə cəlb edilməsi, həmin şəxslərin ifadələrinin məzmunu, nə kimi maddi sübutların və yazılı materialların işə əlavə edilməsi barədə bildirməyə borclu deyil.

Qanun işin hansı materiallarının təqsirləndirilən şəxsə bildirməyi zəruri hesab edirsə, bunu müvafiq normativ aktda birbaşa nəzərdə tutur. Belə ki, müstəntiq təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərarda həmin şəxsin törətdiyi cinayətin mahiyyətini, törədilmə yeri və vaxtını və digər halları açıqlayır, çünki, bunlar işin materialları ilə artıq müəyyən edilmişdir (CPM-in 223-cü mad.). Bundan sonra təqsirləndirilən şəxsə qətimkan tədbirinin seçilməsi haqqında qərar təqdim edilir. Təqsirləndirilən şəxs iştirak etdiyi istintaq hərəkətlərinin (axtarış və ya götürmə - CPM-in 242-ci mad., baxış - CPM-in 236-cı mad., şəxsi müayinə - CPM-in 238-ci mad.) protokolları ilə tanış olur. Dindirmədə səsyazan texniki vasitələrdən istifadə edildikdə, bu barədə təqsirləndirilən şəxsə qabaqcadan məlumat verilməklə tanış olmasına şərait yaradılır. İş üzrə ekspertiza təyin olunduqda, müstəntiq təqsirləndirilən şəxsi ekspertizanın təyin olunması barədə qərarla və ekspertin rəyi ilə tanış edir (CPM-in 91.5.20-ci mad.) [3.s.115].

Dindirmə zamanı təqsirləndirilən şəxsə hədə-qorxu gəlməyə və ya ona qarşı digər qanunsuz hərəkətlər tətbiq etməyə yol verilmir. Dindirilən şəxsə nəinki, ona verilən sualların məzmunu, hətta dindirməni aparan müstəntiqin səsinin xoşagəlməz tonu yolverilməz psixi təsir göstərə bilər.

A.Vasilyev təqsirləndirilən şəxsin dindirilməsi məsələsinə toxunaraq qeyd edir ki, “nəzakətli, lakin möhkəm ton dindirmənin ümumi qaydasıdır”. Bundan sonra fikrinin açıqlanmasını davam edərək, A.Vasilyev yazır ki,“dindirmə kobud, tələbkar, əmrverici tonla aparılmalıdır”[10.s.14].

Burada belə bir sual meydana gəlir. Dindirmənin tonunda nə kimi əmr ifadə olunmalıdır? Təqsirləndirilən şəxs müstəntiqin sualına cavab vermək istəmədiyi halda müstəntiqin əmrverici tonla “cavab ver” – sözünü? Əlbəttə, belə “əmr” yersiz və yolverilməzdir, çünki təqsirləndirilən şəxs ifadə verməkdən imtina etmək hüququna malikdir və bu barədə ona göstəriş vermək olmaz.

Bu baxımdan A.Vasilyevin fikri ilə razılaşa bilmərik, çünki belə mövqe dindirmə zamanı etik qaydalara riayət edilməsi tələbinə ziddir.

Dindirmənin taktiki və metodiki üsullarını hazırlayan zaman onların etikanın tələblərinə uyğun gəlməsini müəyyən etmək vacibdir. Yolverilməz və şərəfsiz (vicdansız) yollarla müstəntiqi razı salan ifadələrin alınmasına cəhd etmək qəbuledilməzdir. Bununla əlaqədar olaraq, dindirmədə hiylə tətbiq etmək haqqında məsələ də xüsusi diqqət cəlb edir.

Müstəntiq hiyləsi nə deməkdir? Əgər hiylənin yol-yoldaşı və məcburi elementi, yalan və aldatmadırsa, onda belə hiylə yolverilməzdir. Dindirmədə yalan və aldatmanın sinonimi kimi hiylənin tətbiq edilməsinin tərəfdarları çalışırlar sübut etsinlər ki, belə üsulun tətbiq edilməsinin məqsədi cinayətkarın ifşa edilməsinə yönəlmişdir. Lakin, hesab edirik ki, bu yanlış fikirdir və etikanın tələblərinə qəti şəkildə ziddir, ona görə də yolverilməzdir. Azərbaycan xalqının əxlaqiyyatı "məqsəd hər cür vasitələrə haqq qazandırır" iyezuit şüarına sərt şəkildə mənfi yanaşır. Əlbəttə müstəntiqin qarşısında duran məqsəd - cinayəti açmaq, cinayətkarı ifşa etmək vacib əhəmiyyət kəsb edir. Lakin, şübhəsiz ki, bu məqsədə yaramaz vasitələrlə nail olmağa dair cəhdə haqq qazandırmaq olmaz. Ədalət mühakiməsinin qarşısında duran vacib məsələlər mənəvi baxımından yalnız yolverilən fəndlərlə həll oluna bilər.

Ş.Kərimov qeyd edir ki, əxlaqi münasibətlər insanların əxlaq qaydalarına riayət edərkən daxil olduqları münasibətlərdir [5.s.68].

Müəllif fikrini davam etdirərək əxlaqın, əxlaq qaydalarının meyarlarına cavab verən fikirləri və hərəkətləri aşağıdakı ləyaqətlər vasitəsilə təqdim edir: təmizlik, nəciblik (alicənablıq), fədakarlıq, qəhrəmanlıq, mərhəmətlik, mehribanlıq, ədalətlilik, əliaçıqlıq, mərdlik, insana, cəmiyyətə, dövlətə, hörmətcil münasibət və s.

Əxlaq da hüquq kimi ictimai münasibətləri, o cümlədən cinayət mühakimə sferasında mövcud olan münasibətləri tənzimləyir. Cəmiyyət inkişaf etdikcə və ictimai şüurun strukturunda humanitar xarakterli fikirlərin əhəmiyyəti və rolu artdıqca, müvafiq əxlaqi imperativlər cinayət mühakimə icraatının qaydalarını tənzimləyən cinayət-prosessual hüquq normalarına daxil edilir.

Beləliklə, cinayət-prosessual qanun cəmiyyət tərəfindən mənəvi baxımdan bəyənilir, əxlaqın daha əhəmiyyətli müddəaları isə qanuni qüvvəsini əldə edir.

Həqiqətin müəyyən edilməsinə dair K. Marks yazırdı: "Düzgün olmayan vasitələri tələb edən məqsəd həqiqi məqsəd deyil". Müstəntiqin qarşısında duran tərbiyə məsələlərinə qeyri-mənəvi yolları tətbiq etməklə nail oluna bilməz.

Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyi şəxsin könüllü gəlib təqsirini boynuna alması, cinayətin açılmasına fəal kömək etməsini cəzanı yüngülləşdirən hal kimi (CM-in 59.1.10-cu mad), digər tərəfdən isə, təqsiri olmadığını bilə-bilə şəxsi ittiham etməyi isə cinayət məsuliyyəti kimi müəyyən edir (CM-in 290-cı mad) [2. s.72, 373]. Qüvvədə olan qanunu təqsirləndirilən şəxsə izah edərkən, müstəntiq bunu təqsirləndirilən şəxsə günahını etiraf etməyə məcbur etmək üçün ona psixi təsir göstərmək vasitəsi kimi istifadə edə bilməz. Müstəntiq öz mənəvi borcuna görə təqsirləndirilən şəxsə izah etməlidir ki, onun cinayətin törədilməsinə görə səmimi olaraq peşmançılıq çəkməsi, cinayətin açılmasına fəal kömək göstərməsi yüngülləşdirici hal kimi nəzərə alınır.

İstintaq hiyləsi haqqında məsələyə qayıdaraq, qeyd etmək lazımdır ki, hüquqşünaslar aldatma və yalanla bağlı hiyləni qəti surətdə rədd edirlər. Bu halda belə bir sual yaranır: aldatma və yalanla bağlı olmayan hiylə mövcud ola bilərmi? Hesab edirik ki, əgər aldatma və yalana əsaslanan, aldatma və yalanın sinonimi kimi dərk edilən hiylə mövcud olursa, yuxarıda qeyd edilən mənfi cəhətləri olmayan, uzaqgörmənin, bacarığın, ixtiraçılığın təzahürü kimi baxılan hiylənin mövcud olması da mümkündür. İstintaq təcrübəsində belə hiyləyə, xüsusən dindirmə aparılarkən yol verilir. Bu cür hiylənin tətbiq edilməsi nəinki dindirmədə, həmçinin bəzi digər istintaq hərəkətlərinin aparılmasında da yol verilir. Gəlin axtarış istintaq hərəkətinin keçirilməsinə diqqət yetirək. Axtarış zamanı maraqlı şəxslərin davranışı birbaşa və ya yanakı şəkildə şübhəli yeri göstərə bilər. Müstəntiqin maraqlı şəxsin (şəxslərin) davranışı və ya hərəkətlərini diqqəti cəlb etmədən gizli şəkildə müşahidə etməsi, gizlədilən əşyaların olduğu yeri müəyyən etməyə və orada xüsusi axtarış keçirməyə kömək edir.

"Müstəntiqlər üçün rəhbər təlimat"da düzgün deyilir ki, axtarış iştirakçılarının müşahidə edilməsi maraqlı şəxslərin davranışları ilə axtarılan əşyaların gizlədildiyi yeri müəyyən etməyə imkan yaradır". Müstəntiq maraqlı şəxsin mürəkkəb narahatçılığından baş çıxara bilməlidir, gedənin hədəfə yaxınlaşmağını göstərən əlamətləri tutmağı bacarmalıdır və bundan nəticə çıxararaq axtarışa yönləndirməlidir [7. s. 336].

İstintaq hərəkətlərinin daha çox yayılmış növü dindirmədir. Cinayət-prosessual qanun dindirmənin aparılması qaydalarını kifayət qədər müfəssəl şəkildə nizamlayır, zəruri hallarda təqsirləndirilən və şübhəli şəxslərin nə vaxt dindiriləcəyini müəyyən edir (CPM-in 232 və 233-cü mad.) Qanun dindirilən şəxslərə yönəldici, yəni cavablara ipucu verən sualları qadağan edir. Bu qadağa nəinki müstəntiqə, həmçinin dindirmədə iştirak edən digər şəxslərə - müdafiəçiyə, pedaqoqa, yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsinə də aiddir. Qanun təhqiqat və ya ibtidai istintaq aparan şəxs tərəfindən hədə-qorxu gəlməklə və ya digər qanunsuz hərəkətləri tətbiq etməklə dindirilən şəxsi ifadə verməyə məcbur etməyə görə cinayət məsuliyyəti nəzərdə tutur (CM-in 299-cu mad).

Midhəd Qəfərov haqlı qeyd edir ki, dindirmə aparılarkən şəxsiyyətin hüquq və azadlıqlarına hörmətlə yanaşılması bir tərəfdən dövlət orqanlarının cinayətkarlıqla qətiyyətli mübarizə aparması məqsədlərinə xidmət edirsə, digər tərəfdən ictimaiyyət arasında insan və vətəndaşların hüquq və azadlıqlarına hörmətlə yanaşıldığını, sui-istifadə hallarının yol verilməzliyinə tam inam formalaşdırır [4.s.141].

İstintaq nəzəriyyəsi və praktikasında dindirmənin kifayət qədər taktiki və metodiki üsulları işlənib hazırlanmışdır. Son zamanlar ədəbiyyatlarda dindirmənin etik başlanğıclarına xüsusi diqqət yetirilir.

Q.F.Qorskiy, L.D. Kokorev və D.P. Kotov taktiki üsulların hər birinin mənəvi baxımdan yolverilməsi məsələsini həll etmək üçün onların geniş siyahısını təhlil etmişlər. Onlar apardığı təhlili yekunlaşdıraraq, qeyd edirlər ki, təsvir etdikləri üsulların bacarıq və ehtiyatla istifadəsi özündə heç bir psixi zorakılıq, yalan və aldatma daşımır, buna görə müstəntiqin və məhkəmənin fəaliyyətində onlara yol verilə bilər [8. s.107]. Lakin unutmaq olmaz ki, vicdansız insanların əllərində bu əxlaqi prinsiplər onların dağılmasına (məhvinə) gətirib çıxara bilər.

L.Y. Arotskerin təqsirləndirilən şəxslə dindirmə aparılan zaman “qəflətənlik”, “diqqətin azdırılması”, “uydurma ifadələr” kimi üsulların yol verilməsi haqqında fikri maraq doğurur. Belə ki, dindirmə zamanı müstəntiqin tətbiq etdiyi taktiki üsullardan birinin mahiyyəti ondan ibarətdir ki, dindirilən şəxs ona hansı sualların veriləcəyini, həmin suallara cavablar hansı nəticələrə gətirib çıxara biləcəyini qabaqcadan bilməməlidir və sualın nə kimi məqsəd daşıdığını başa düşməməlidir [9.s. 42].

Hesab edirik ki, təqsirləndirilən şəxsin ona verilən suala hansı cür cavabı, onun üçün xeyirli olmasını dərhal başa düşməməsi və hansı cür mövqe tuta bilməməsi özündə heç bir qeyri-əxlaqi xarakter daşımır. Dindirmə zamanı “uydurma və yalan” ifadələr verməyə müstəntiq tərəfindən təqsirləndirilən şəxsə imkan yaradılması kimi taktiki üsul da əxlaqi qaydalara ziddiyyət yaratmır.

“Məhkəmə etikası” adlı praktiki vəsaitin müəllifləri düzgün qeyd edirlər ki, burada yanakı olaraq yalanı həvəsləndirməkdən söhbət getmir və sadəcə olaraq təqsirləndirilən şəxsə sərbəst şəkildə danışmağa imkan yaradılır [8. s.140]. Bu isə qanunun tələblərinə zidd deyil, hansı ki: “Dindirmə şahidə cinayət təqibi ilə bağlı bütün halları danışmaq təklifi ilə başlanır və bundan sonra ona suallar verilə bilər” (CPM-in 227.5-ci mad.).

Təcrübədən əldə edilmiş misalla bunu bir qədər ətraflı izah etməyə çalışaq. Ehtiyatsızlıqdan ağır zərər vurma cinayətinə görə ittiham olunan göz həkiminin işi üzrə əvvəllər onun xəstəsi olmuş şahid dindirilirdi. Müalicə qəbul etmiş xəstə göz həkimi ilə əvvəllər çox yaxşı münasibətdə olduğunu və ondan razılığını dəfələrlə bildirmişdir. Lakin, müalicələrin yaxşı nəticə vermədiyi, sonda görmə qabiliyyəti tamamilə zəiflədiyi üçün xəstənin göz həkiminə qarşı münasibətləri qəflətən dəyişmişdir. Məhkəmə istintaqında geniş nitq ilə çıxış edərək bildirmişdir ki, həkim onun kor olmasını qarşısına məqsəd kimi qoymuşdur (Lakin cinayət işində kifayət qədər istintaq materialları ilə təsdiq olunur ki, xəstənin müalicəsi düzgün aparılmışdır). Belə ifadələr istiqamətverici sualların verilməsinə zəmin yarada bilməz. Lakin, bir daha təsdiqlənir ki, təqsirləndirilən şəxsə qarşı qəzəbindən kor olmuş şahid çox güman ki, iş üzrə əsil həqiqətin müəyyən edilməsi üçün nə isə demiş olsun.

Yuxarıda qeyd olunanları nəzərdən keçirərək, belə nəticəyə gəlmək olar ki, müstəntiq müxtəlif istintaq hərəkətlərini həyata keçirən zaman cinayət-prosessual qanunun tələbləri ilə yanaşı

etik və əxlaqi normaların tələblərinə də ciddi riayət etsə, törədilmiş cinayət əməlinin zəruri, iş üçün əhəmiyyət kəsb edən hallarının müəyyən edilməsinə nail ola bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. "Hüquq Yayın Evi", 2018. 92 səh.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. / Maddələr üzrə normativ mənbələrə istinadlarla (20 noyabr 2017-ci il tarixədək edilmiş əlavə və dəyişikliklərlə) Bakı, "Digesta" nəşriyyatı, 2017, 472 səh.
3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, "Hüquq Yayın Evi", 2018. 792 səh.
4. Qəfərov M.S. Azərbaycan Respublikasının cinayət prosesində şəxsiyyətin hüquqi vəziyyəti: Nəzəri və təcrübi məsələlər. Bakı, "Qanun", 2008, 346 səh.
5. Kərimov Ş. İbtidai araşdırma. Bakı, "Elm və təhsil", 2018, 320 səh.
6. Eyvazov H.Q. Cinayət mühakimə icraatında İbtidai araşdırma sirri (istintaq sirri). Monoqrafiya. Bakı: Qanun, 2010, 216 səh.
7. Руководство для следователей / Под общ. Ред. В.В.Мозякова. – М.: Издательство «Экзамен», 2005. – 912 s.
8. Горский Г.Ф., Кокорев Л.Д., Котов Д.П. Судебная этика. Воронеж, 1983, 210 s.; Проблемы судебной этики. Под ред. М.С.Строговича. М., 1974, 380 s.; Ратинов А.Р. Теория рефлексивных мер в приложении к следственной практике. – В кн.: правовая кибернетика. М., 1980, 294 s.
9. Ароцкер Л.Е. Тактика и етика судебного допроса. М., 1979, s. 42-47.
10. Васильев А. Тактика допроса обвиняемого. – «Соц. законности», 1989, № 4, с. 14.


### *ETHICS OF INVESTIGATOR IN AZERBAIJAN*

***S.A. Aghayev, I.R. Mirzayev***

*The article investigates the necessity of following ethical and moral requirements by the investigator during the execution of separate investigative actions. The author considers the investigator's inability to obtain "information required for the investigator" during the inter-rogation and the investigator considers the inadmissibility of coercion, but also the use of "investigative tricks" which don`t violate the law requirements during interrogation and prosecution and don`t violate the procedural rights of persons participating in those investigations.*

***Key words**: ethical beginnings, moral norms, moral relations, accusation, accused, search, "an investigator's trick".*

### *ЭТИКА СЛЕДОВАТЕЛЯ В АЗЕРБАЙДЖАНЕ*

***С.А. Агаев, И.Р. Мирзоев***

*В статье исследуется вопрос необходимости соблюдения следователем при проведении отдельных следственных действий требований этики и морали. Автор, считая недопустимым проявления следователем при допросе обвиняемого грубости, принуждения его даче «нужных для следователя» показаний, вместе с тем допускает возможность применения при допросе и производстве обыска так называемой «следовательской хитрости», которая не противоречит требованиям закона и не нарушает процессуальные права лиц, участвующих в этих следственных действиях.*

***Ключевые слова:** этические начала, моральные нормы, моральные отношения, обвинение, обвиняемый, обыск, «следственная хитрость».*

***Rəyçi: h.f.d. S.S. Məmmədova***